# SƏMİMİ İNSAN, XEYİRXAH ALİM

Sayalı xanım mənim üçün təkcə terminologiya sahəsində öz dəsti-xəttini, üslubunu yaradan şəxs, dilçi alim deyil, həmçinin elmi rəhbərim, işlədiyim şöbənin müdiridir. Elə buna görə də onun haqqında yazmaq mənim üçün ikiqat məsuliyyətdir.

Elm sahəsində təkcə savad, elmi bilik, bu bilikdən düzgün və səmərəli istifadə kifayət etmir, həmçinin bu sahə mübarizlik, cəsarət, qətiyyət tələb edir. Sayalı Allahverdi qızı Sadıqova 1960-cı ildə ziyalı ailəsində anadan olub. Şöbədə bizə danışdığı xatirələrində Qərbi Azərbaycanda ermənilərin azərbaycanlıların ali təhsil almasını, uğur əldə etməsini qısqanclıq, kibirlə qarşıladığını deyirdi. Universitetə qəbul olmasını həmin ərazidə yaşayan ermənilər tərəfindən necə xainliklə qarşılandığını onların sözlərində, baxışlarında sezdiyini deyən Sayalı xanımın əslində elm sahəsində mübarizəsi o dövrdən başlamışdı. 1981-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, həmin il Elmi Şuranın qərarı ilə Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasına daxil olmuş və 1986-cı ildə "Azərbaycan ədəbi dilində termin-söz birləşmələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun üçün dünənimiz, bugünümüz, gələcəyimiz olan dil, tarixi yaddaşımız, bilik mücrümüzdür. Dil adət-ənənəmiz, milli psixologiyamız, mənəviyyatımız, ana laylamız, ata öyüdümüz, şən və qəmli nəğmələrimiz sevgi pıçıltılarımız, fəryad bayatılarımızdır. Dili canından çox sevən, yorulmadan, gecə-gündüz araşdıran, zəhmətkeş, müdrik bir şəxsiyyət olan Sayalı xanım öz tədqiqatları, araşdırmaları ilə dilimizi yaşadır, bu amal ona qol-qanad, ilham verir, bu amal həm də yaşadır onu... !

Ömrünün 60-cı pilləsində duran Sayalı xanım üçün bir əbədi mövzu var: dilçilik elmi və onun araşdırılması problemləri. Ana dilinin vurğunu, yorulmaz araşdırıcılarındandır. Bu araşdırmalarsız onun həyatını, yaşayışını, ömür yolunu təsəvvür etmək qeyri-mümkündür. Elmi axtarış həvəsi həm də onun üçün mənəvi qida, yaşayış stimuludur. Gözlərini dünyaya açan gündən ətrafında halal adamlar, halallıq, halal çörək görüb. Müəllim ailəsinin halal zəhməti ona halallıq öyrətdi.

Qardaşı Yusif Sadıqovun 1990-cı il 20 Yanvar faciəsində şəhid olması bütün ailəni, xüsusilə ona çox bağlı olan Sayalı xanımı dərindən sarsıtdı. Bütün ağrısını, acısını unutmaq üçün özünü elmə bağlamaqla sakitləşməyə çalışdı. Əlbəttə, illər keçsə də bu acı, bu itki yaddan çıxmadı, yazdığı bir çox kitabı ona həsr etdi, hər özəl, xüsusi günündə onu andı, onun naminə daha da güclü dayanmağa çalışdı. 1999-cu ildə "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyası müdafiə edəndə də onun bağlı olduğu fizika-riyaziyyat sahəsi ilə yazdığı əsərlə sanki onu yaşatdı.



2000-ci ildə Terminologiya şöbəsinə Sayalı xanım rəhbərlik etməyə başladı. Vəzifəyə başladığı gündən şöbənin elmi fəaliyyətini gücləndirmək üçün daim əlindən gələni edir. Terminologiyanın aktual problemlərini əhatə edən "Terminologiya" jurnalının həcmini, əhatə dairəsini genişləndirir. Bu gün bu jurnalda təkcə yerli alimlərin deyil, həmçinin dilçilik sahəsində öz sözünü demiş xarici alimlərin də elmi araşdırmaları və mülahizələri öz əksini tapır.

Bu gün Sayalı xanım Terminologiya Komitəsinin sədr müavini, "Terminologiya" jurnalının redaktoru, Adlar və Soyadlar Komissiyasında mühüm vəzifələri təmsil edir. Adlar ilə bağlı şöbəmizə gündə onlarla zəng daxil olur, eyni zamanda vətəndaşlar müraciət edir. Sayalı xanım Azərbaycan dilinin saflığı, milliliyi, onun xəlqiliyini qorumaq məqsədilə səbirlə hər təqdim olunan ada öz fikrini bildirir, vətəndaşları maarifləndirir. Bunun necə böyük əmək, səy, enerji tələb etdiyini vurğulamağa, məncə, ehtiyac yoxdur.

S.A.Sadıqova elmi yaradıcılığını ilmə-ilmə hörüb. Belə ki, o, terminologiyanın nəzəri problemlərinə, eləcə də dilçiliyin başqa sahələrinə dair 26 monoqrafiyanın, 300-dən artıq elmi məqalənin müəllifi və elmin müxtəlif sahələri ilə bağlı Terminologiya Komissiyasının xətti ilə nəşr olunan 50-dən artıq terminoloji lüğətin redaktoru və ön sözünün müəllifidir. S.Sadıqova bunlarla bərabər Respublikamızda elmi konfranslarda, eləcə də, Türkiyə, Qazaxıstan və İranda keçirilmiş konfrans və simpoziumlarda maraqlı məruzələrlə çıxış etmiş, Azərbaycanda keçirilən bir sıra konfransların təşkilat heyətinin üzvü olmuşdur. Həmçinin 2011-2012-si ildə Türkiyədə keçirilən Dil qurultayında nümayəndə heyəti kimi iştirak etmişdir.

S.Sadıqova uzun müddət Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirmə Şurasının üzvü olmuş, hazırda Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik üzrə Müdafiə Şurasının üzvü və Dilçilik İnstitutunda Elmi seminarın sədridir. S.Sadıqovanın rəhbərliyi ilə dilçiliyin müxtəlif problemləri ilə bağlı 14 nəfər filologiya üzrə fəlsəfə doktoru, o cümlədən 2 nəfər filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almışdır. Türk dillərinin vahid terminologiyasının yaradılması sahəsində Ekspertlər Komitəsinin və Ortaq Terminoloji Kurulun üzvü seçilmişdir. Türk dillərinin ortaq əlifbasının qəbul edilməsi və prinsiplərinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan dilçilik elminin inkişafındakı xidmətlərinə görə professor S.A.Sadıqova 12 dekabr 2005-ci ildə AMEA-nın 60 illiyi və 29 oktyabr 2010-cu ildə anadan olmasının 50 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərman ilə, 2015-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir. 2017-ci ildə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə "İlin alimi", Azərbaycan Kütləvi İnformasiya Şurası tərəfindən H.Əliyev ideyalarını həyata keçirilməsindəki fəaliyyəti, Vətənə və xalqa layiqli xidmətlərinə görə "İlin nüfuzlu ziyalısı" ali media mükafatına, 2018-ci ildə yaradıcılıq fəaliyyətinə görə KİV və Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatına layiq görülmüşdür.

Sayalı xanım hər şeydən əvvəl qayğıkeş ana, sevilən nənədir. Hər bir aspirantının qayğısını çəkən, onlara yol göstərən sevilən elmi rəhbərdir. Sadəliyi, səmimiliyi, xeyirxahlığı, elmi ilə seçilən alimdir. Ona can sağlığı, daim əzizləri və sevdikləri ilə birgə xoş günlər arzu edirəm. Məşhur kəlamda deyildiyi kimi, həyat elmin qarşısına məqsəd qoyur, elm isə həyat yolunu işıqlandırır. Əziz Sayalı xanım, məqsədləriniz, eləcə də həyat yolunda işığınız daim parlaq və gur olsun!

*Vəfa* Abdullayeva-Nəbiyeva
***AMEA Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***